

## Allahşükür QURBANOV

### AZƏRBAYCAN ƏSGƏRİNƏ

Torpağımız qanla sulanmış bizim,
Ürəyimdə düyümlənibdir sözüm.
Düşmən tapdağına yox artıq dözüm!
Ey Vətən övladı, a canım, gözüm,
«Marş irəli, marş Vətən imdadına».

Torpağımız, namusumuz, şanımız,
Bu uğurda əsirgənməz qanımız!
Tələb edir dinimiz, imanımız -
Gəl eloğlu, gəl birləşək hamımız,
«Marş irəli, marş Vətən imdadına!»

Lap sümüyə dayanıb artıq bıçaq,
Bir bayraq altına! Nə sol, nə də sağ!
Sənin, mənim, bizimkidir bu torpaq!
Sənin, mənim, bizimkidir bu bayraq!
«Marş irəli, marş Vətən imdadına!»

* * *

Qurumayır şəhid qanı
Kar edib naləm dünyanı...
Namus, qeyrət imtahanı!
Tarixi yada sal, əsgər!
Qələbə marşı çal, əsgər!

Parçalandıq param-param,
Hələ də qan verir yaram,
Belə həyat bizə haram!
Bayrağınla ucal, əsgər!
Qələbə marşı çal, əsgər!

Alay-alay, qoşun-qoşun,
Qıy vurun, kükrəyin, coşun!
Torpağından qovulmuşun
Haqqını geri al, əsgər!
Qələbə marşı çal, əsgər!

Xocalının torpağı qan,
Qanla yuyulacaq bu qan!
Əmr eyləyir Vətən, zaman,
Hünər göstər, ad al əsgər!
Qələbə marşı çal, əsgər!

Gözü yolda qalan Şuşam,
Həsrətinlə qovrulmuşam...
İntiqamla yoğrulmuşam!
Gözlə məni, gələcəyəm!
Göz yaşını siləcəyəm!

Çilələrin bitməz olmuş,
Bülbüllərin ötməz olmuş,
Səsin mənə yetməz olmuş,
Qayaları dələcəyəm,
Gözlə məni, gələcəyəm.

Şimşək olub çaxacağam,
Atəş olub yaxacağam,
Düşmən evin yıxacağam,
Gözlə, Şuşam, gələcəyəm!
Göz yaşını siləcəyəm!
Azadlığın sorağıyla,
Düşmənlərə göz dağıyla -
Azərbaycan bayrağıyla
And içirəm, gələcəyəm!
Göz yaşını siləcəyəm!

* * *

Qobustanın qayaları,
Xəzərin qırçın suları,
Məsum körpə röyaları
Qoru, deyir, qoru məni.
Gey əyninə, gey səngəri,
Ey Azərbaycan əsgəri!

Xocalının qan yaddaşı,
Kəlbəcərin dərdli başı,
Üzeyirin məzar daşı,
Qoru, deyir, qoru məni.
Gey əyninə, gey səngəri,
Ey Azərbaycan əsgəri!

Qədirin göynəyən səsi,
Bülbülün qaynar nəfəsi,
Xan əminin şikəstəsi
Qoru, deyir, qoru məni.
Gey əyninə, gey səngəri,
Ey Azərbaycan əsgəri!

Anaların min diləyi,
Babaların min əməyi,
Nəsillərin gələcəyi
Qoru, deyir, qoru məni.
Gey əyninə, gey səngəri,
Ey Azərbaycan əsgəri!

* * *

Analarçün torpaq dərdi övlad dərdin üstələdi,
Qaçqınlığın sərt küləyi başımıza od ələdi,
Düşmən haqqa gələr deyə dözdük,
dözdük, usanmadıq.
Kömək üçün yad qapısın döydük,
Ya Rəb, utanmadıq!..

Bu yol uzun bir yoldu...
Səbrin kasası doldu...
Çiynindən qəm yükün at,
silah as qəm yerinə!
Çadır kəsafətindən intiqam səngərinə!
Haray çəkir, yol gözləyir
yetim qalan yurd yerləri,
Haydı, qisas zamanıdır, marş irəli,
Marş irəli,
Azərbaycan əsgəri!

### XARI BÜLBÜL, AĞLAMASIN

Səmalar da qara bağlar,
Sular, sellər coşub çağlar,
Ürəkləri həsrət dağlar
Xarı bülbül ağlayanda.

Buludlar kirpiyin sıxar,
Göz yaşı sellənib axar,
Qəmli-qəmli ay da baxar
Xarı bülbül ağlayanda.

Güllərin bağrı qan olar,
Nərgizin gözləri dollar,
Qərənfillər dinməz solar
Xarı bülbül ağlayanda.

Haraylar dostu, sirdaşı,
Üsyan edər qan yaddaşı.
Baş qaldırar məzar daşı
Xarı bülbül ağlayanda.

Haydı, yürüş Qarabağa,
Boynu bükük o torpağa.
Azərbaycan, qalx ayağa
Xarı bülbül ağlamasın!
Ürəkləri dağlamasın!

Qoy gurlasın gur-gur cəngi,
Dəyişsin dövrün ahəngi,
Açılsın güllərin rəngi,
Xarı bülbül ağlamasın!
Ürəkləri dağlamasın!

**2018**